


# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 20 (24.157)

*2 fevral 2023-cü il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev Türkiyənin milli təhsil nazirini və TBMM-in bir qrup üzvünü videokonfrans formatında qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Türkiyə Respublikasının milli təhsil naziri Mahmut Özeri və Türkiyə Böyük Millət Məclisinin (TBMM) bir qrup üzvünü videokonfrans formatında qəbul edib.

Görüşün videokonfrans formatında keçirilməsinə səbəb Türkiyə nümayəndə heyətinin üzvlərində COVID-19 testinin nəticəsinin pozitiv çıxmasıdır.

Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini deyən dövlətimizin başçısı Mahmut Özerin və Türkiyə Böyük Millət Məclisinin bir qrup üzvünün ölkəmizə səfərinin önəminə toxundu və bu səfərin əlaqələrimizin daha da genişlənməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

Təhsil sahəsində əməkdaşlıqda böyük nailiyyətlərin əldə olunduğunu bildirən Prezident İlham Əliyev iki ölkənin dövlət başçılarının razılaşdırdığı kimi Azərbaycan-Türkiyə birgə universitetinin yaradılmasının böyük önəm daşıdığını dedi.

Mahmut Özer Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Mahmut Özer Azərbaycan Respublikasının Tehrandakı səfirliyinin binasında törədilən terror aktı zamanı mühafizə xidmətinin rəhbəri Orxan Əsgərovun həlak olması ilə bağlı Prezident İlham Əliyevə başsağlığı verdi.

Dövlətimizin başçısı başsağlığına görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev səfirliyin digər mühafizə əməkdaşının qəhrəmanlığı nəticəsində terrorçunun zərərsizləşdirildiyini və bununla da silahlı şəxsin səfirliyin başqa əməkdaşlarına və onların ailə üzvlərinə hücumunun qarşısının alındığını vurğuladı. Dövlətimizin başçısı hazırda Azərbaycan tərəfindən bu terror aktının hərtərəfli şəkildə araşdırıldığını diqqətə çatdırdı. Prezident İlham Əliyev vurğuladı ki, həmin şəxsin səfirliyimizin binasında törətdiyi terror hadisəsi prosesinin xeyli vaxt çəkməsinə baxmayaraq, İranın polis və təhlükəsizlik qüvvələri tərəfindən hər hansı ciddi tədbir görülməyib.

İkinci Qarabağ müharibəsində Azərbaycanın Zəfəri münasibətilə bir daha təbriklərini çatdıran qonaq bildirdi ki, xalqlarımız ən çətin dövrlərdə həmişə bir-birinin yanında olub.

Təhsil sahəsində əlaqələrimizin son illərdə çox sürətlə inkişaf etdiyini deyən Mahmut Özer Türkiyənin bu sahədə ölkəmizlə təcrübəsini bölüşməkdən məmnunluq hissi keçirdiyini bildirdi.

Görüşdə Şimali Kipr Türk Respublikasının Türk Dövlətləri Təşkilatının Səmərqənddə keçirilən Zirvə toplantısında təşkilat yanında müşahidəçi statusunun alınması prosesində üzv dövlət kimi Azərbaycanın göstərdiyi dəstəyə görə minnətdarlıq ifadə olundu.

**AZƏRTAC**

## Gənclər siyasəti sahəsində fəallığı ilə fərqlənən şəxslərin təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq 2 fevral – Azərbaycan Gəncləri Günü münasibətilə **qərara alıram:**

Dövlət gənclər siyasətinin həyata keçirilməsində səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**“Tərəqqi” medalı ilə**

Babayev Fuad Muxtar oğlu
Bayramova Şəfəq Zaqif qızı
Əkbərov Qadir Xalis oğlu
Ərəbov Orxan Namiq oğlu
Qədimbəyova Günay Rüfət qızı
Qədirov Mübariz Yusif oğlu
Niftəliyeva Vüsalə Sahib qızı

**“Dövlət qulluğunda fərqlənməyə görə” medalı ilə**

Həsilov Elvin Bəxtiyar oğlu
İsaqov Natiq Cankişi oğlu
Paşayeva Nisə Fazil qızı
Rzayeva Cəmilə Ramiz qızı.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 1 fevral 2023-cü il*

## 2023-cü il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Gənclər üçün Prezident mükafatına namizədlərin seçilməsi üzrə Ekspert Komissiyasının təklifinə əsasən və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən aşağıdakı şəxslərə 2023-cü il Gənclər üçün Prezident mükafatları verilsin:

Axundova Ülviyyə Süleyman qızı
Əliyev Kamran Əbülfəz oğlu
Əliyeva Adilə Həbib qızı
Həşimov Orxan İlqar oğlu
Hüseynli Cabbar Rasim oğlu
İslamov Bəxtiyar Qabil oğlu
Məsimov Nicat Rafiq oğlu
Nağıyeva Mehriban Vidadi qızı
Zəkəryəzadə Tural Namiq oğlu

**birgə fəaliyyətə görə:**

Xəlilov Şahin İlqar oğlu
İmanzadə Günay Fikrət qızı.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 1 fevral 2023-cü il*

## Babək rayonunun Vayxır kəndi abad kəndlər sırasına qoşulub

Bu gün ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan inkişafın yeni mərhələsindədir. Quruculuq işlərinin və sosial proqramların miqyasının genişlənməsi dövlət-xalq birliyini daha da möhkəmləndirir. Babək rayonunun Vayxır kəndində genişmiqyaslı quruculuq işlərinin həyata keçirilməsi bu sahədə görülən işlərin davamıdır.

## Vayxır kənd tam orta məktəbi müasir tədris imkanlarına malikdir





Fevralın 1-də Vayxır kənd tam orta məktəbinin binası yenidənqurmadan sonra istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir. Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov məlumat vermişdir ki, Babək rayonunun Vayxır kəndində 378 şagird yerlik tam orta məktəb binasının yenidən qurulmasına 2022-ci ilin mart ayında başlanılmışdır. 2 mərtəbədən ibarət olan məktəb binasında 21 sinif otağı, 2 elektron lövhəli sinif, kompüter sinfi, şahmat sinfi, hərbi kabinə, STEAM kabinəsi, müəllimlər otağı, kimya, biologiya, fizika laboratoriyaları, kitabxana, idman zalı və digər otaqlar yerləşir.

Təhsil prosesinin informasiya texnologiyaları əsasında təkmilləşdirilməsi və interaktiv təlim metodlarından istifadə yüksək nəticələrin qazanılmasına imkan verir. Belə ki, məktəbin fizika laboratoriyasında, STEAM kabinəsində və digər 2 sinifdə olmaqla cəmi 4 elektron lövhə quraşdırılmış, məktəbin optik rabitə sistemi ilə internet şəbəkəsinə qoşulması təmin edilmişdir.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov Vayxır kənd tam orta məktəbinin yenidənqurmadan sonra istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir ki, Ümummilli Liderimiz Heydər Əliyevin yolunun Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, ölkəmiz inkişafa qovuşub. Ölkəmizdə digər sahələrin inkişafı ilə yanaşı, təhsil sahəsi də yüksək səviyyədədir. Bu da imkan verir ki, gənclərimiz savadlı kadr kimi yetişsinlər. Ümummilli Liderimiz deyirdi ki, ***“Təhsil sahəsində əldə etdiyimiz nailiyyətlər bizim milli sərvətimizdir”.*** Deməli, təhsil ölkənin gələcəyidirsə, təhsildə əldə olunan nailiyyətlər isə ölkənin milli sərvətidir. Ona görə də ölkəmizdə məktəb işinə bu qədər diqqət və

*Ardı 2-ci səhifədə*

qayğı göstərilir, tədris müasir tələblər səviyyəsində qurulur.

Baş nazir bildirib ki, bu gün elə bir sahə yoxdur ki, orada yeni texnologiyalar tətbiq olunmasın. Bunun üçün də şagirdlər müasir texnologiyaları yaxşı mənimsəməli, daha yaxşı öyrənməlidirlər ki, gələcəkdə təhsillərini müxtəlif ali və orta ixtisas təhsili məktəblərində davam etdirə bilsinlər. Kollektivin qarşısında duran əsas vəzifə gənclərimizə yaxşı təhsil verməklə cəmiyyətin gələcək inkişafını təmin etməkdir. Bunun üçünsə məktəbdə hər cür şərait yaradılıb. Yaradılan şəraitdən düzgün istifadə olunarsa, təhsil



ocağı nailiyyətlərini daha da artırar.

Baş nazir kollektivə uğurlar arzulamışdır.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov çıxış edərək demişdir ki, Ulu Öndərin təhsilə, müəllim əməyinə qayğıkeş münasibəti ölkəmizdə və onun tərkib hissəsi olan muxtar respublikamızda uğurla davam etdirilir. Təhsil müəssisələrinin infrastrukturu yenilənir, müəllim və şagirdlərin təlim şəraiti yaxşılaşdırılır. Muxtar respublikanın digər rayonları kimi, Babək rayonunda da ümumtəhsil məktəblərinin maddi-tədris bazasının yaxşılaşdırılması diqqətdə saxlanılır. Bu gün Vayxır kənd tam orta məktəb binasının yenidən qurularaq müəllim və şagirdlərin istifadəsinə verilməsi bu sahəyə göstərilən qayğının bariz nümunəsidir. Vayxır kənd tam orta məktəbində yaradılan müasir tədris şəraiti məktəbdə bilikli və vətənpərvər gənclərin yetişdirilməsinə geniş imkanlar açmaqla yanaşı, əldə olunan uğurlu nəticələrin davamlılığını da təmin edəcəkdir.

Məktəb binasının həyətində bufet, qazanxana, idman qurğuları və 4 ədəd sanitar qovşaq yerləşir. Bina istilik, elektrik və su sistemi ilə təchiz olunmuş, ətrafında geniş abadlıq işləri aparılmışdır. Belə ki, həyətə kilid daş və travertin plitələr döşənmiş, yamaclar betonlanmışdır. Həyətdə ağaclar, gül kolları əkilmiş, ətraf ərazi işıqlandırılmış və suvarma sistemi ilə təchiz olunmuşdur.

## Vayxır Kənd Mərkəzində və Həkim Ambulatoriyası binasında müasir iş şəraiti yaradılıb



Fevralın 1-də Babək rayonunun Vayxır Kənd Mərkəzinin və Həkim Ambulatoriyasının açılışı olmuşdur. Məlumat verilmişdir ki, binanın tikintisinə 2022-ci ilin mart ayında başlanılmışdır. 3 mərtəbədən ibarət olan binada – baş həkim, qeydiyyat, manipulyasiya, peyvənd, mama, doğuş, stomatoloq, palata, əczaxana, ATS, poçt, polis üçün otaqlar, həmçinin Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, Bələdiyyənin işçiləri, qəbul üçün, həmçinin İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin, Mədəniyyət evinin işçiləri üçün otaqlar, 44 yerlik iclas zalı, kitabxana, kitabxana işçiləri üçün otaq, arxiv, əlavə olaraq 5 ədəd iş otağı, qazanxana və 3 ədəd sanitar qovşaq yerləşir.

Bina istilik, elektrik və su sistemi ilə təchiz olunmuş, ətrafında geniş



abadlıq işləri aparılmışdır. Belə ki, həyətə kilid daş və travertin plitələr döşənmişdir. Həyətdə ağaclar, gül kolları əkilmiş, ətraf ərazi işıqlandırılmış və suvarma sistemi ilə təchiz olunmuşdur.




## Yeni xidmət mərkəzi geniş imkanlar açır

Həmin gün Vayxır kəndində yeni xidmət mərkəzinin açılışı olmuşdur. Naxçıvan Muxtar Respublikasının Baş naziri xidmət mərkəzində yaradılan şəraitlə tanış olmuşdur. Məlumat verilmişdir ki, binanın tikintisinə 2022-ci ilin may ayında başlanmışdır. 1 mərtəbədən ibarət olan binada ərzaq malları, təsərrüfat və sənaye malları mağazası, ət satışı mağazası, dərzi, bərbər, qadın gözəllik salonları və 2 anbar yerləşir.

Bina istilik, elektrik və su sistemi ilə təchiz olunmuş, ətrafında abadlıq işləri aparılmışdır. Həyətdə ağaclar, gül kolları əkilmiş, ətraf ərazi işıqlandırılmış və suvarma sistemi ilə təchiz olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti***

## Azərbaycan gəncliyi ölkənin etibarlı təminatçısıdır

*Gənclər hər bir cəmiyyətin aparıcı qüvvəsidir. Onların hər bir sahədə inkişafı məqsədilə qoyulan investisiya dövlətin parlaq gələcəyinin təminatıdır. Gənclərin tərbiyəsi, onların problemlərinin həllinə dəstək və gənc vətəndaşlara dövlət qayğısı müstəqil Azərbaycan dövlətinin daxili siyasətinin mühüm vəzifələrindəndir. Bir millətin mövcudluğu və inkişafı, sözsüz ki, onun sağlam gəncliyinin olmasını şərtləndirir. Çünki hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən asılıdır.*

### *Ölkə gəncliyinin inkişafı çoxşaxəli dövlət siyasətinin bəhrəsidir*

Ölkəmizin hərtərəfli inkişafı, xüsusən insan kapitalına qoyulan sərmayə, rəqabətədavamlı insan kapitalı formalaşdırmaq naminə atılan addımlar, ilk növbədə, ölkənin sahib olduğu gənc nəsli doğru, düzgün və dövlətin gələcəyinin təminatçısı kimi formalaşdırmaqdan keçir. Bu mənada, Azərbaycan dövlətinin həyata keçirdiyi hərtərəfli siyasətin ən vacib komponentlərindən birini dövlət gənclər siyasəti təşkil edir. Bu siyasi istiqamət gənclərin intellektual səviyyəsinin artırılması, gənclərimizin və yeniyetmələrimizin elmə, təhsilə yiyələnmələrinə nail olunması, onların arasında Azərbaycançılıq ideologiyasının, milli-mənəvi dəyərlərin mənimsənilməsi, gənclərimizin dövlət və hökumət strukturlarında geniş təmsil olunması və digər taleyüklü məsələləri özündə ehtiva edir.

Ümummilli Liderimiz Heydər Əliyev sağlam gənc nəslin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifəsi kimi daim diqqət mərkəzində saxlamış, onların dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini vacib məsələ elan etmişdir. 1996-cı il fevralın 2-də Azərbaycan gənclərinin I Forumunun keçirilməsi, bundan sonra hər il fevralın 2-nin ölkəmizdə Gənclər Günü elan olunması bu sahədə görülən işlərin tərkib hissəsi kimi mühüm əhəmiyyət daşıyır. Forumda gənclər təşkilatlarının və gənclərimizin qarşısında mühüm vəzifələr qoyulmuş, gənc nəslin hərtərəfli inkişafı, problemlərinin həlli sahəsində ciddi tədbirlərin görülməsi aid dövlət orqanlarının əsas vəzifəsi kimi müəyyənləşdirilmişdir.

2003-cü ildən sonrakı dövrdə isə dahi siyasətçinin layiqli davamçısı Prezident cənab İlham Əliyev gənclər siyasətinin inkişaf istiqamətini mövcud ənənələr əsasında






daha da təkmilləşdirdi. Azərbaycan gəncliyi ilə bağlı Dövlət proqramları qəbul edildi, 2007-ci il “Gənclər ili” elan olundu, 2011-ci ildə Gənclər Fondu yaradıldı, 2013-cü ildə ölkədə ilk dəfə “Gənclər üçün Prezident Mükafatı” təsis olundu, “2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası” təsdiqləndi və bu istiqamətlər üzrə əhəmiyyətli layihələr icra olundu. Bu sahədə görülən işlərin nəticəsidir ki, milli ruhda tərbiyələndirilən Azərbaycan gəncləri müxtəlif sahələrdə uğurlu fəaliyyəti, qazandığı nailiyyətlərlə yanaşı, tariximizin ən önəmli dövrlərindən biri olan 44 günlük Vətən müharibəsindəki qəhrəmanlığı, siyasi və sosial aktivliyi ilə Vətən, xalq və dövlətçilik qarşısında mühüm faktor kimi özünü doğrultdu. Həmin gənclərin vətənpərvərliyi, şücaəti daim yüksək qiymətləndirilir və daha geniş kontekstdən yanaşdıqda, onların ümumi profili gənclər siyasətinin inikası kimi dəyərləndirilir. Ölkə Prezidentinin dediyi kimi: ***“Mən çalışmışam ki, fəaliyyətim dövründə gənclərin tərbiyə olunması ilə bağlı əksəriyyəti gənclər idi. Bu hər birimiz üçün qürur mənbəyidir. Çünki elə bir gənc nəsil yetişdi ki, hətta Qarabağı görməyən, o acı tarixi görməyən gənclər Qarabağ uğrunda, Vətən uğrunda, milli ləyaqət uğrunda ölümə gedirdilər və şəhid oldular, qazi oldular və müzəffər Ordumuzun şöhrətini yüksəklərə qaldırdılar. Əgər bu siyasət olmasaydı, əgər gənclər vətənpərvərlik ruhunda tərbiyə almasaydılar, bilmək olmazdı müharibənin nəticələri necə ola bilərdi”.***

Bu fikirlər ölkə başçısının Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda iştirakı zamanı sadalanan önəmli məsələlərdən, sadəcə, biridir. Xatırlamaq yerinə düşər ki, forum gənclərin ölkə başçısı ilə birbaşa dialoqu əsasında bir çox mətləblərin aydınca izahı və gələcək perspektivlərin müəyyənləşdirilməsi, yeni çağırışlar baxımından mühüm əhəmiyyətə malik idi. Buna misal olaraq ermənilərin Azərbaycan ərazisindəki ekoloji cinayətlərinə qarşı Xankəndi-Laçın yolunda təşkil olunan etiraz aksiyasını qeyd etmək olar. Havaların şaxtalı olmasına baxmayaraq, hələ də davam edən aksiyada gənclərin üstünlük təşkil etdiyi ekofəalların haqq mübarizəsi davam edir. Bu yaxınlarda yerli televiziya kanallarına müsahibəsi zamanı dövlət başçısı cənab İlham Əliyevin aksiyada iştirak edən gəncləri qürurla: ***“Onlar bizim fəxrimizdir”***, – deyə bu mübarizəni yüksək səviyyədə qiymətləndirməsi, bir növ, gənclərə forumda təlqin etdiyi gözləntilərin qarşılığını görən liderin məmnuniyyəti idi.

Qeyd edə bilərik ki, ölkəmizin siyasi və iqtisadi inkişafı fonunda gənclərin cəmiyyətdəki mövqeyi daha da güclənib, gənclərin təmsil olunduğu hökumət və qeyri-hökumət təşkilatlarının sayı artıb, bu müstəvidə fəaliyyət genişləndirilib. Təhsil və karyera imkanlarının yüksəldilməsi, qeyri-neft sektorunda investisiya artımı və ümumilikdə, sahibkarlığın inkişaf etdirilməsi amili gənc ixtisaslı kadrlara tələbatı da yüksəldib. Ölkə başçısının uğurlu və dərinləşən islahatları sayəsində uzun zamandır ki, dövlət idarəçiliyində və bir çox sahədə gəncləşdirmə mexanizmi tətbiq olunur. Nəticədə, Azərbaycanın inkişafına xidmət etməli olan vəzifəli şəxslərin, məsul şəxslərin qiymətləndirmə əmsalı cəmiyyət qarşısında konkretlik tapır: yüksək savad, dünyagörüş və digər göstəricilərin əsasında həqiqi vətənpərvərlik şərtdir və məhz belə insanlara etimad göstərilir. Gənclərin beynəlxalq arenaya çıxışı və fəaliyyətinin genişləndirilməsi Azərbaycanın tanıdılması və həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması baxımından effektiv nəticələr verir.

### *Naxçıvan gənclərinin hərtərəfli inkişafına zəmin yaradılır*

Ölkə başçımızın prinsipiallıqla reallaşdırdığı dövlət gənclər siyasəti Naxçıvanda da uğurla həyata keçirilir. Gənclər muxtar respublikanın ictimai-siyasi, iqtisadi-mədəni həyatında fəal iştirak edirlər. Gənclərin məşğulluğunun təmin edilməsi, yaradıcılıq axtarışlarının stimullaşdırılması, milli ruhda tərbiyəsi, onların hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, yüksək səviyyədə təhsil alması, intellektual səviyyəsinin

*Ardı 3-cü səhifədə*

yüksəldilməsi, dünyagörüşünün formalaşması və asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzindədir. Son dövrlərdə könüllülük hərəkatı geniş vüsət alıb. Gənclərlə iş sahəsində fəaliyyət göstərən məsul şəxslərin, o cümlədən könüllü gənclərin ölkəmizdə, eləcə də xaricdə təşkil olunan müxtəlif layihələrə, təcrübə mübadiləsi proqramlarına cəlbi müasir iş metodlarının öyrənilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Gənc nəslin şəxsi inkişafını sürətləndirmək və onlar üçün yeni karyera imkanları yaratmaq məqsədilə müxtəlif motivli təlimlər, seminarlar, kurslar təşkil olunur. Uğurlu fəaliyyəti ilə seçilən gənclər düşərgə tipli layihələrə cəlb olunur, əlamətdar günlərlə bağlı mərasimlərdə mükafatlandırılırlar. Şəhid ailələri və qazilərlə ardıcıl görüşlər, müxtəlif hərbi idman oyunları, sosial aksiyalar və digər bu kimi tədbirlər gənclərin vətənpərvərlik hissinin yüksəldilməsinə əsaslı zəmin yaradır. Sevindirici haldır ki, gənclərimiz əlverişli mühitdən yararlanaraq müxtəlif peşə sahibi kimi yetişir, aparıcı sahələrdə faydalı və uğurlu fəaliyyəti ilə cəmiyyətə xidmət edirlər. Naxçıvan gəncləri siyasi-ictimai, mədəniyyət, təhsil, idman və digər sferalarda üstün bacarıq və keyfiyyətləri ilə fərqlənir. Müxtəlif konseptdə intellektual yarışlar, innovativ bilik və bacarıqların gücləndirilməsinə aid layihələr, müxtəlif təlim və kurslar sayəsində gənclərin zehni inkişafı artırılır. Yaradıcı və





istedadlı gənclərin fəaliyyətinə dəstək davamlı xarakter alıb. Bütün bunların fonunda gənc nəsil nümayəndələrinin uğurları da artmaqdadır. Səmərəli fəaliyyətinə görə dövlət səviyyəsində təltif olunanlar, mükafatlandırılanlar arasında Naxçıvandan olan gəncləri də görmək mümkündür. Ötən il Naxçıvandan olan gənclərdən daha biri (Əziz Qasımov) Prezident Mükafatına layiq görüldü, bir idmançımıza (Tayfur Əliyev) ölkə başçısı tərəfindən mənzil orderi təqdim olundu, bir gəncimiz (Aytac Hacızadə) də ölkə üzrə "İlin fəal könüllüsü" seçildi.

Gənc nəslin sağlam həyat tərzinə təşviqi, sağlamlıq imkanları məhdud şəxslərin idmana cəlbi əsas prioritetlərdəndir. Muxtar respublikamızın mövcud və yenilənməkdə olan infrastrukturu bu sahədəki kütləviliyi daha da artırır. Məşqçi və idmançıların hazırlıq səviyyəsinin yüksəldilməsi ilə bağlı görülən işlər, ölkə və dünya təcrübəsinə malik mütəxəssislərin Naxçıvana gəlişi, federasiyalardakı işgüzar aktivlik və bu sahədə fəaliyyət göstərən idman ictimaiyyəti nümayəndələrinin səyi hesabına yeni nailiyyətlər də əldə olunur. Təkcə ötən ilin statistik rəqəmlərinə nəzər salsaq, görərik ki, idmançılarımız ölkə səviyyəli yarışlarda 216, beynəlxalq turnirlərdə 63, Avropa çempionatında 33, dünya çempionatında 2, dünya kubokunda 2 medal olmaqla, ümumilikdə, 316 medal əldə ediblər.

### *Azərbaycan gəncinə liderlik xüsusiyyətləri aşılanır*

Ötən il fevralın 2-də Bakıda Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumu zamanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tarixi nitqi, gənclərin suallarını cavablandırarkən gənclərə yüksək etimad və qayğısı, gələcək fəaliyyət prinsiplərini müəyyənləşdirən dəyərli tövsiyələri bu gün gəncliyin gələcək uğur harmoniyasını təşkil edir. Qazanılan uğurların arxasında güclü dövlət, qətiyyətli lider və qəhrəman xalq vəhdəti dayanır.

Yaxın tarixdə yaratdığımız yeni reallıqlar Azərbaycanı birlik və bərabərlik içində yeni uğurlara səsləyir. Mövcud vəziyyət bütün sahələrdə inkişafa yol açır və bu istiqamətdə gənclərimizin üzərinə mühüm missiya düşür. Prezident cənab İlham Əliyev bu müstəvidə də gənclərin xidmətlərini yüksək qiymətləndirir, onlara olan etimadını və gözləntilərini daim açıq şəkildə bəyan edir: ***"Biz öz siyasətimizi ardıcıl şəkildə aparırıq. Azərbaycanda sabitlik, əmin-amanlıq, təhlükəsizlik hökm sürür, genişmiqyaslı quruculuq işləri aparılır. Tarixi Zəfərimiz hər bir azərbaycanlı üçün, hər bir vətəndaş üçün, bütün dünya azərbaycanlıları üçün qürur mənbəyidir. Biz gələcək nəsli də vətənpərvərlik ruhunda tərbiyə edəcəyik, necə ki, bunu həmişə etmişik və elə gözəl gənc nəsil yetişdirmişik ki, həm idman arenalarında ölkəmizin bayrağını qaldırır, həm də döyüş meydanında. İkinci Qarabağ müharibəsində iştirak edənlərin mütləq əksəriyyəti gənclər idi – bizim siyasətimiz əsasında yetişən, həm cəmiyyətdə, həm də ailələrdə gözəl tərbiyə alan gənclər idi. Bu amil, əlbəttə ki, bütün sahələrdə özünü göstərir. Yəni artıq iki ildən çoxdur ki, xalqımız müzəffər xalq kimi yaşayır və bu qürurverici amil bizimlə bundan sonra əbədi olacaq. Sadəcə olaraq bizim hər birimiz də öz sahəmizdə, öz fəaliyyətimizdə bu müqəddəs Zəfərə layiq olmalıyıq".***

Ölkə rəhbərinin idmançılar qarşısında bütün ölkə gəncliyinə, xalqımıza xitabən səsləndirdiyi bu fikirlərdə həssas məqamlar çoxdur. Odur ki, müqəddəs Zəfərə layiq olmaq üçün dünəni unutmamalı, bu günü məsuliyyətlə yaşamalı, sabaha inamla irəliləməliyik. Həyatımızın hər anında ölkəmizin ümumi maraqlarına xidmət, milli təəssübkeşlik ön planda olmalıdır. Azərbaycan tarixi gəncliyini Vətən uğrunda, haqq uğrunda sipər edən, bu yolda canından keçən şəxsiyyətlərlə zəngindir. Yeni tarixdə imzası olan gənclərimiz bu dəyərlərdən təsirlənir, cəmiyyətdəki vəzifəsini aydınca dərk edir. Unutmaq olmaz ki, müasir Azərbaycan gənci həm də bizə qalib adını miras buraxan qəhrəmanların, "Dəmir yumruq"lu xalqın və onun liderinin davamçılarıdır.

**Emil SƏMƏDOV**
*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi*

# 2 fevral – Gənclər Günü münasibətilə tədbirlər keçirilib

*Naxçıvan Muxtar Respublikası İcra Hakimiyyətinin təşkilatçılığı ilə Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində 2 fevral – Gənclər Günü ilə bağlı tədbir keçirilib. Əvvəlcə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Sonra gənclər siyasətinə həsr olunan film nümayiş olunub.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası İcra Hakimiyyətinin müavini Təhminə Mustafayeva çıxış edərək bildirib ki, Ümummilli Liderimiz Heydər Əliyevin təşəbbüsü ilə 1996-cı il fevralın 2-də ilk dəfə müstəqil dövlətin gənclər forumu keçirildi və həmin gün Azərbaycan tarixinə Gənclər Günü kimi yazıldı.

Diqqətə çatdırılıb ki, bu gün Vətəninə, adət-ənənələrinə, öz kökünə sadiq və dövlətinə xidmət edən, müqəddəs bayrağımızı ən uca zirvələrdə, Şuşada dalğalandıran Azərbaycan gəncləri bu siyasətdən həmişə bəhrələnib. Ulu Öndərin əsasını qoyduğu bu siyasət hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün Azərbaycan gənclərinin möhtərəm Prezidentimiz cənab İlham Əliyevin Vətənimizin tərəqqisi naminə həyata keçirdiyi möhtəşəm işlərdə yaxından iştirakı xalqımızda xoşbəxt gələcəyə tükənməz inam və əminlik



yaradır.

Tədbirdə Naxçıvan Muxtar Respublikası gənclər və idman nazirinin müavini Mirməcid Seyidov çıxış edərək deyib ki, Azərbaycan gəncliyi ictimai həyatın bütün bölmələrində aktiv fəaliyyəti ilə seçilir. Ölkədə həyata keçirilən gənclər siyasəti gənclərin bütün təbəqələrinin hərtərəfli inkişafını, ölkənin ictimai-siyasi həyatında onların yaxından iştirakını təmin etməkdədir. Yeni mərhələdə dövlət başçısı tərəfindən gerçəkləşdirilən siyasət ən müxtəlif sahələri əhatə etməklə genişmiqyaslıdır.

Qeyd olunub ki, muxtar respublikamızda da gənclərin sağlam, vətənpərvər ruhda böyüməsi, yüksək səviyyədə təhsil almaları, onların cəmiyyətin müxtəlif sahələrində fəal iştirakını təmin etmək üçün ardıcıl tədbirlər həyata keçirilir. Diyarımızda gənclərin sosial, iqtisadi və digər problemlərinin həllinə, onların istedad və intellektlərinin inkişafına yönəlmiş addımlar atılır. Naxçıvan gəncliyinin uğurları, nailiyyətlər ölkə Prezidentinin qayğısı ilə ən yüksək səviyyədə qiymətləndirilir, onlara fəxri adlar, mükafatlar verilir.

Çıxış edənlərdən Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini Həsən Kərimov bildirib ki, ölkəmizin hərtərəfli inkişafında gənclərin rolu danılmazdır. Gənclər cəmiyyətin aparıcı qüvvəsidir. Göstərilən diqqət və qayğının nəticəsidir ki, bu gün Azərbaycan gəncləri dövlətin dəstəyi ilə dünyanın aparıcı ali məktəblərində təhsil alırlar. Ölkəmizdəki yüzlərlə gənc aktiv təşkilatı fəaliyyətləri ilə seçilirlər. Dövlətin gənclərə dəstək və diqqəti Azərbaycan gəncliyində öz gücünə, istedadına inam hissini artırır. Bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşır. Bu gün Azərbaycanda həyata keçirilən islahatlar innovativ düşüncəyə, yüksək intellektə malik gənclərin yetişməsini zərurətə çevirib. Azərbaycan gəncliyi ölkənin ictimai-siyasi, sosial-iqtisadi həyatında fəal təmsil olunur, intellektual imkanları və kreativliyi ilə dövlətçiliyimizin möhkəmləndirilməsi işinə layiqli töhfələr verir, göstərilən etimadı öz uğurları ilə cavablandırır.

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Gənclər Birliyinin sədri Arzu Qasımov çıxışında vurğulayıb ki, dövlətimiz tərəfindən gənclərə göstərilən diqqət və qayğı nəticəsində bu gün onlar muxtar respublikanın ictimai-siyasi, iqtisadi-mədəni həyatında fəal iştirak edir, dövlət idarəçiliyi elm, təhsil, iqtisadiyyat, mədəniyyət, və digər sahələrdə irəli çəkilir, xidmətləri qiymətləndirilir. Bütün bunlar isə elmli, savadlı, yüksəkixtisaslı gənc kadrların yetişdirilməsinə hesablanmış addımlardır.

Çıxışlardan sonra tədbirin bədii hissəsinə start verilib. Gənc musiqiçilərin ifasında bir-birindən gözəl musiqi nömrələri alqışlarla qarşılanıb.

Sonra muxtar respublikanın ictimai həyatında və yaradıcılıq sahəsində fərqlənən, eyni zamanda Vətən müharibəsində iştirak edən gənclərə diplom və təşəkkürnamələr təqdim edilib. Sonda xatirə şəkli çəkilib.

* * *



"Naxçıvan" Universitetində "2 fevral – Azərbaycan Gəncləri Günü" adlı elmi-praktik konfrans keçirilib. Konfransda çıxış edən universitetin rektoru, dosent Nurlana Əliyeva bildirib ki, Ümummilli Lider Heydər Əliyev gənclərə həmişə yüksək qayğı göstərərək onlarla bağlı məsələlərin həllini dövlət siyasətinin mühüm istiqamətlərindən biri kimi müəyyənləşdirib. Məhz Ulu Öndər Azərbaycanda dövlət gənclər siyasətinin təməlini qoyub və bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev bu siyasəti uğurla davam etdirir. Bunun nəticəsində gənclərimiz ölkə həyatının bütün sahələrində yüksək fəallıq nümayiş etdirirlər.

Bu gün Azərbaycanda gənclər siyasətinin uğurla həyata keçirildiyini diqqətə çatdıran rektor gənclərin milli ruhda tərbiyəsinin daim diqqət mərkəzində saxlanılmasından bəhs edib.

"Gənclik sabaha ümid və inam deməkdir" adlı məruzə ilə çıxış edən "Naxçıvan" Universitetinin Tələbə-Gənclər Təşkilatının sədri Altay Cəfərli bildirib ki, universitetdə gənclərin inkişafı, onların fəallıqlarının artırılması, məşğulluqlarının təmin edilməsi, istedadlarının müəyyənləşdirilməsi istiqamətində ardıcıl, sistemli tədbirlər görülüb və bunun müqabilində bir çox nailiyyətlər əldə olunub. Təbii ki, əldə olunan nailiyyətlərin hamısı respublikamızda aparılan uğurlu gənclər siyasətinin tərkib hissəsidir.

Ali təhsil ocağının İdarəetmə və Pedaqoji fakültələrinin tələbələri Oğuz Məmmədov və Zeynəb İlyasova bu gün Azərbaycanda gənclərin inkişafı, onların fəaliyyəti üçün hər cür şərait yaradılmasından danışıblar.

Konfransın davamında videoçarx nümayiş olunub. Konfrans təhsil, ictimai və mədəni sahələrdə fərqlənən fəal gənclərə sertifikatların təqdim edilməsi ilə yekunlaşıb.

Naxçıvan Müəllimlər İnstitutunda keçirilən tədbirdə institutun rektoru Azad Novruzov çıxış edərək bildirmişdir ki, Ümummilli Liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi dövlət gənclər siyasəti bu gün uğurla davam etdirilir. Gənclər daim diqqətdə saxlanılır, onların formalaşması və inkişafı üçün Dövlət proqramları qəbul edilir, strateji yol xəritələri müəyyənləşdirilir. "Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən ali təhsil müəssisələrinə əlavə təqaüdlərin verilməsi də tələbə-gənclərə göstərilən qayğının bariz nümunəsidir.

Sonra institutun tədris və tərbiyə işləri üzrə prorektoru Çapay Quliyev çıxış edərək institutda Tələbə-Gənclər Təşkilatı ilə aparılan işin mahiyyətindən və gələcək perspektivlərdən danışmışdır.

Magistrant Ülkər Məmmədova ali təhsil ocağının Tələbə-Gənclər Təşkilatının 2022-ci ildəki fəaliyyətinə dair hesabat təqdim etmiş, qazanılan uğurlar və 2023-cü ildə görüləcək işlər haqqında məlumat vermişdir. Qeyd olunmuşdur ki, Naxçıvan Müəllimlər İnstitutu Tələbə-Gənclər Təşkilatı 2022-ci il ərzində bir çox yarış və layihələrdə, ölkə səviyyəli və muxtar respublika səviyyəli tədbirlərdə iştirak edərək uğurlar qazanmışdır.

Bildirilmişdir ki, təşkilatın nəzdində 15 klub fəaliyyət göstərir. Təşkilatın qoşulduğu ON1000 proqramında 6, Hədəf "10 faiz" proqramında 3, "Çətir" proqramı çərçivəsində 5 tədbir, klubların fəaliyyəti çərçivəsində 4 viktorina, 5 rəsm sərgisi, 6 təlim, 7 intellektual oyun, 3 layihə, əlamətdar günlərə həsr



edilmiş 15 tədbir, 10 idman turniri, 3 idman həftəsi və digər tədbirlər reallaşdırılmışdır. Bundan əlavə, institut tələbələri "Yaşa və öyrən – Bahariyyə" intellektual yarışının, institutun "Müəllimlər" komandası hərbi-idman oyununun, STEAM festivalının qalibi olmuşdur.

Diqqətə çatdırılmışdır ki, tələbələrimiz badminton, qız tələbələr arasında keçirilən stolüstü tennis yarışlarının qalibi olmuş və institut daxilində təşkil edilən bilik yarışlarında yüksək nəticələr sərgiləmiş, komandamız Bakıda təşkil olunan "Heydər Əliyev və Azərbaycan tarixi" VII ümumrespublika bilik yarışında uğurla təmsil olunmuşdur.

Tədbirdə 2022-ci ildə təhsildə və ictimai işlərdəki fəallıqlarına görə fərqlənən bir qrup tələbə-gəncə mükafatlar təqdim olunmuşdur.

Sonda tələbələrin hesabat sərgiləri ilə tanışlıq olmuş, tədbir bədii hissə ilə yekunlaşmışdır.

**Xəbərlər şöbəsi**

# İşıqlı gələcək gənclərlə gələcək

## Vətənin nurlu sabahının, işıqlı gələcəyinin bayraqdarları

*Böyük yunan alimi, filosof, mütəfəkkir Aristotel bir zamanlar özünün məşhur “Əxlaq” traktatında yazırdı: “Gənclərin yetişməsinə əhəmiyyət verin. Çünki bu yolda hər hansı bir məsuliyyətsizlik məmləkətin fundamentini məhv edər”. Cəmiyyətin ən ali, coşqun ruhlu təbəqəsi sayılan gəncliyin irqindən, dilindən, dinindən, hətta yerləşdiyi coğrafi mövqedən asılı olmayaraq, bir çox cəmiyyətlərə verdiyi töhfələri göz önünə gətirsək, Aristotelin yüksək fikirlərini dərinliyi ilə dərk edə bilərik. Təsadüfi deyil ki, dünyanın bir çox inkişaf etmiş ölkələrinin statistikasına baxsaq, insanların həyat səviyyəsinin yüksək olduğunu, nəticədə, gənclərin təhsil sahəsində uğur qazandığını, idman, incəsənət, musiqi və digər sahələrdə nailiyyət əldə etdiyini görərik. Bu üstünlüklərin olması da təsadüfi deyil. Çünki daim inkişaf etmək, yenilənmək, zamanın tələbini doğrultmaq istəyən hər bir cəmiyyət öz ümidlərini, hədəflərini gənc nəslə, bir az da mübaliğəli desək, gəncliyin sağlam təməllər üzərində qurulmasına bağlayır, onların düzgün əqidədə, vətənpərvər ruhda böyüməsi üçün əlindən gələni edir. Bütün bunlar dünya arenasında, necə deyərlər, öz sözünü demiş, gənclərin ideyaları ilə tanınan və inkişafın fövqündə dayanan azad, demokratik ölkələrin atdığı mütərəqqi addımlardır. Elə hürr iradəli, milli düşüncəli, istiqlal ruhlu Vətənimiz azad Azərbaycanda da olduğu kimi...*

Ölkəmizdə gənclərin düzgün yetişdirilməsi, onların təhsilə, idmana, incəsənətin müxtəlif sahələrinə, məşğulluğa cəlbi prioritet istiqamətdir, Ümummilli Liderimiz Heydər Əliyevin ölkəmizə hakimiyyətə gəlişindən sonra bu məsələ davamlı xarakter alıb, bu istiqamətdə mühüm işlər görülüb, böyük addımlar atılıb. Ən mütərəqqi addım isə Ulu Öndər tərəfindən 1997-ci il 2 fevral tarixində imzalanan Sərəncam olmuşdur ki, həmin ali sənədlə Azərbaycanda 2 fevral “Gənclər Günü” kimi qeyd olunur; azad, müstəqil, işıqlı Azərbaycan gənclərinin günü kimi...

Hər il ölkə qəzetlərində, televiziya kanallarında və digər kütləvi informasiya vasitələrində gənclərimizin qazandığı uğurlardan kifayət qədər danışırlar. Sevindirici haldır ki, istedadlı gənclərimizin sayı hər ötən il daha da artır. Elə biz də Gənclər Günü ərəfəsində fürsətdən istifadə edərək, muxtar diyarımızda öz istedadı ilə seçilən, həm özünə, ailəsinə, həm də Vətəninə baş ucalığı gətirən bir neçə gənclə həmsöhbət olduq.

İlk həmsöhbətimiz hələ uşaq yaşlarından gələcəyin peşəkar idmançısı kimi yetişmək arzusunda olan, oxuduğu ali təhsil ocağını bir sıra beynəlxalq turnirlərdə, yarışlarda təmsil edən və uğurlar qazanan Naxçıvan Dövlət Universitetinin Bədən tərbiyəsi və idman ixtisası üzrə IV kurs tələbəsi, Avropa çempionu ***Aslan İsmayılov*** oldu. Müsahibimiz dedi: – İdman sahəsinə kiçik yaşlarımdan marağım var idi,



2007-ci ildən isə karate-do ilə məşğul oluram. İlk ən böyük uğuruma 2008-ci ildə – Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin və Karate-do Federasiyasının 16 mart tarixdə birgə təşkil etdikləri Novruz bayramına həsr olunmuş turnirdə ikinci yeri qazanmaqla nail oldum. Bununla yanaşı, Avropada keçirilən bir çox yarışlarda, dünya birinciliklərində də iştirak etmişəm. Hətta karate-do idmanı üzrə 2018-ci ildə dünya ikinciliyini, 2019-cu ildə isə Avropa üçüncülüyünü qazanaraq beynəlxalq səviyyədəki ilk ən böyük arzulanmdan birinə çatmışam, həmin yarışlarda Vətənimə böyük sevinclə qayıtmışam.

Müsahibimiz qazandığı uğurlara görə bir çox mükafatlarla, diplomlarla da təltif edilib: Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin və Gənclər Fondunun birgə təşkilatçılığı ilə, yəni 2016-2017-ci illərin yekunlarına görə keçirilən “İlin idmançısı” nominasiyası üzrə diplomlarla, 2017-2018-ci tədris ilində Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən fəxri fərmanla, Əlahiddə Ümumqoşun Ordu Komandanlığı tərəfindən diplomla, 2018-ci ilin yekununa görə qiymətli hədiyyə ilə və son olaraq 2021-ci ildə universitetin rektorluğu tərəfindən 25 yanvar tarixdə təşəkkürnamə və hədiyyələrlə mükafatlandırılıb.

Digər müsahibimiz həmin ali təhsil müəssisəsinin İncəsənət fakültəsinin IV kurs tələbəsi ***Türkan Əsədova***dır. Həmsöhbətimiz bildirdi ki, ölkəmizdə, eləcə də muxtar respublikamızda gənclərin sağlam vətəndaş kimi böyüməsi, onların peşəkar kadr kimi formalaşması, habelə gələcəkdə öz ixtisasları üzrə daha yaxşı yetişməsi üçün hər bir şərait yaradılıb. O qeyd etdi ki, təhsil aldığı Naxçıvan Dövlət Universitetində hər il müxtəlif istiqamətlərdə sərgi müsabiqələri, sərgi-satışlar keçirilir. Tələbəgənclərə həmin müsabiqələrdə iştirak etmək, onların öz əl işlərinin satışını təşkil etmələri üçün böyük imkanlar yaradılır. Həmin müsabiqələrdən bir neçəsini qeyd edən Türkan diqqətimizə çatdırdı ki, bu il fakültənin dekanı, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Cavid İsmayılovun rəhbərliyi altında tələbələrin təşkilatçılığı ilə “Bizim keramika” adlı sərgi keçirildi. Bu, muxtar diyarımızda tələbələr tərəfindən keçirilən ilk böyükformatlı sərgi kimi çox müsbət qarşılandı. Onu da öyrəndik ki, müsahibimiz həm də Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin gənc rəssamlar bölməsinin üzvüdür və birliyin təcrübəli rəssamları ilə birgə fəaliyyət göstərmək, nəzəriyyədə qazandığı bilikləri burada praktiki şəkildə tətbiq etmək onlara çox şey qazandırır.



Gənc rəssamımız əl işlərinin sərgilənməsi prosesindən, habelə sərgi-satışların keçirilməsi işindən də danışdı: – Bildirim ki, keçirilən sərgilərdə və müsabiqələrdə işlənən əl işlərindən ən uğurluları toplanılaraq nümayiş edilir və bir çoxu, daha dəqiq desək, müsbət rəy alan əl işlərinin sərgi-satışı təşkil olunur. Bunun üstünlüyü ondan ibarətdir ki, tələbələrin öz işlərindən qazandıqları gəlirlər həm onların maddi təminatının yaxşılaşdırılmasına, həm də işlərinə daha da peşəkarcasına yanaşmalarına həvəsləndirir. Gənc rəssam kimi mən də Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin təşkil etdiyi bir çox müsabiqələrdə, o cümlədən paytaxt Bakıda və qardaş Türkiyə Respublikasında keçirilən sərgi müsabiqələrdə iştirak edib, bir çox mükafatlara, fəxri fərmanlara layiq görülmüşəm. Son olaraq dövlətimizin gənclərə yaratdığı şəraitdən bəhrələnən gənc rəssam kimi sənətsevərlərə qazandığım uğurlara söykənərək demək istəyirəm ki, peşələrini hər zaman sevsinlər, bu yolda daim axtarışda olsunlar, mütəmadi biliklər qazanmaqdan heç zaman yorulmasınlar. Ən başda isə vətənlərini sevməkdən, onun nurlu sabahı üçün çalışmaqdan heç zaman yorulmasınlar.

Xatırladaq ki, ölkəmizdə sağlamlıq imkanları məhdud gənclərimizin inkişafı üçün də dövlətimiz ayrıca proqramlar qəbul edir, onların bilik və bacarıqlarının üzə çıxarılması, istedadlarının dəyərləndirilməsi, elmin, incəsənətin müxtəlif sahələrinə cəlbi istiqamətində mühüm addımlar atır, bir sözlə, onların cəmiyyətdən təcrid olunmaması üçün hər cür tədbir görür. Nəticədə, sağlam dünyagörüşlü, mütərəqqi ideyalı gənclərimizin sırasına sağlamlıq imkanları məhdud istedadlı gənclərimiz də qoşulurlar.

Növbəti müsahibimiz sağlamlıq imkanları məhdud gəncimiz ***Nərgiz Abdullayeva*** da dövlətimizin diqqəti ilə öz istedadının ardınca gedib və bu sahədə bir çox uğurlar əldə edib. Piano ifaçılığına hələ uşaqlıqdan maraq göstərmiş Nərgiz deyir ki, insan sevdiyi, həvəslə, böyük şövqlə ardından getdiyi işdə mütləq uğur qazanacaq:



– Mütaliə etdiyim kitabların birində belə bir cümləyə rast gəlmişəm: “Gələcəkdə özünü xoşbəxt görmək istəyirsənsə, hər səhər erkən durub həvəslə işə yollanmaq istəyirsənsə, əvvəlcə sevdiyin işin nə olduğunu tapmalısan”. Bəli, düşünürəm ki, bu dəyərli fikir uzun peşə yolunu uğurla başa vurmuş insanların həyat amalı kimi, mənim timsalımda olan bir çox gəncin hafizəsinə həkk edilməlidir. Çünki insanın sağlamlıq səviyyəsi, düşüncə tərzi, həyata baxış bucağı nə qədər fərqli olsa da, qarşısına qoyduğu məqsəd, o yolda cəhd etmək, ailənə, Vətəninə baş ucalığı gətirmək məramı hər zaman bir olmalıdır. Bununla yanaşı, səmimi etiraf etmək istərdim ki, doğma ölkəmizdə gənc olmağa nə var ki? Yaraşıqlı məktəb binaları, zəngin kitabxanalar, yaradıcılıq ocaqları, musiqi məktəbləri və saymaqla bitməyən bir çox müsbət işlər biz gənclərin inkişafı üçün kifayət edir. Elə mən də bu imkanlardan bəhrələnmişəm. Qısa zamanda peşəkar müəllimlərimin göstərişi və tədrisi ilə piano ifaçılığının sirlərini öyrənmişəm. Muxtar respublikamızda keçirilən bir çox musiqi yarışlarında diplomlarla mükafatlandırılmışam, fərqləndirici yerlərə layiq görülmüşəm. Ən əsası isə ötən il 8 oktyabr – Müstəqilliyin Bərpası Günü ilə əlaqədar keçirilən intellektual yarışda II yeri tutmuşam. Artıq təhsil aldığım 2 nömrəli uşaq musiqi məktəbini başa vurmaqdayam, məqsədim Naxçıvan Musiqi Kollecinə qəbul olmaq, burada incəsənətin sirlərini öyrənmək, hər bir Azərbaycan gəncinin arzu etdiyi kimi Vətənimizə layiq şəxsiyyət olmaqdır.

Ali təhsil ocağının digər bir tələbəsi, Biologiya ixtisasının III kursunda təhsil alan ***Aydan Məhərrəmli*** bizimlə söhbət zamanı dedi: – Naxçıvan Dövlət Universitetinə qəbul olduqdan sonra universitetin Tələbə Elmi Cəmiyyətində aparılan tədqiqat işləri ilə tanış olmaq qərarına gəldim. Bu, necə deyərlər, xəyallarımın gerçəkləşməsinə stimul verdi. Mənim timsalımda olan digər tələbə-gənclər əvvəlcə ali təhsil ocağında Tələbə Elmi Cəmiyyəti tərəfindən yerinə yetirilən işləri nəzərdən keçirib öz sahəmizə uyğun mövzu seçimi edirik. Seçdiyimiz mövzu elə bir mövzu olmalı idi ki, onun nəticələri insanlara fayda versin. Mən bu istiqamətdə “İstixana şəraitində yetişdirilən tərəvəz bitkilərinin təbii yolla tozlandırılması üçün nə edə bilərik?” mövzusunda tədqiqat işimə başladım. Bizim bu sahədə apardığımız tədqiqat işi muxtar respublikamızda olan təsərrüfatçıların, habelə istixana sahiblərinin də marağına səbəb oldu. İşimin nəticələri Rusiyanın Penza şəhərində keçirilən “Tələbə elmi: aktual məsələlər, nailiyyətlər və innovasiyalar” VII beynəlxalq elmi-praktiki konfransının materialları ilə birlikdə dərc edildi, I dərəcəli diplom və sertifikatla təltif olundum. Bu da mənim kimi bütün ali təhsil ocağının professor-müəllim kollektivinin sevincinə səbəb oldu. Bu nailiyyətimin ardınca Naxçıvan Dövlət Universiteti Tələbə Elmi Cəmiyyətinin xətti ilə 2021-2022-ci tədris ilində təşkil edilən elmi-tədqiqat işlərində Biologiya bölməsi üzrə universitet birinciliyini qazandım. Bütün bunların nəticəsində Naxçıvan Dövlət Universiteti tərəfindən Heydər Əliyev adına təqaüdə layiq görülmüşəm. Arzu edirəm ki, ölkəmizin, muxtar diyarımızın gəncləri hər zaman Vətənimizi ən gözəl şəkildə təmsil etsinlər, üçrəngli bayrağımızı daim yüksəklərdə dalğalandırsınlar.



*Bu gün Azərbaycan gəncləri cəmiyyətin inkişafında başlıca rola malikdir. Dövlətimizin dəstəyi ilə onlar həyatımızın müxtəlif sahələrində nailiyyətlər qazanır, dövlətçiliyin möhkəmləndirilməsi prosesində iştirak edirlər. Ulu Öndər tərəfindən əsası qoyulmuş bu siyasət Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, birmənalı olaraq gənclərin hərtərəfli inkişafı üçün ölkənin sosial-iqtisadi, elmi və mədəni sahələri, necə deyərlər, səfərbər edilir. Məqsəd isə yeni nəslin inkişafına nail olmaq, gələcək nəsillərə savadlı, intellektli kadrlar verməkdir. Gənclərimizin üzərinə düşən yeganə öhdəlik isə mənsub olduqları xalqın dilini, dinini, milli kimliyini sevmək, ona layiq şəkildə yaşamaqdır. Gününüz mübarək olsun, Azərbaycanın işıqlı gələcəkləri, nurlu sabahları...*

✍ **Məcid RƏŞADƏTOĞLU**
✍ **Aysel YUSİFZADƏ**
✍ **Bülbül QULİYEVA**

## Elan

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti dəftərxana, təsərrüfat, təmizlik ləvazimatlarının və nəqliyyat vasitələrinə ehtiyat hissələrin alınması təmiri və sair işlərin görülməsi üçün kotirovka sorğusu keçirilməsində iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir.

Tender və Kotirovka Komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:

- *Maraq məktubu*
- *Malsatanın satdığı mallar haqqında məlumat*
- *İş və xidmətlər haqqında məlumat*
- *Bank təminatı*

Qeyd olunmuş sənədlər toplusunu 10 fevral 2023-cü il, saat $18^{00}$-a kimi Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etmək lazımdır.

***Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Tender və Kotirovka Komissiyası***
***Əlaqə telefonu: (036) 545-02-12***

***

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti təsərrüfat və təmizlik ləvazimatlarının alınması üçün kotirovka sorğusu keçirilməsində iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir.

Tender və Kotirovka Komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:

- *Maraq məktubu*
- *Malsatanın satdığı təsərrüfat və təmizlik ləvazimatları haqqında məlumat*

Qeyd olunmuş sənədlər toplusunu 10 fevral 2023-cü il, saat $18^{00}$-a kimi Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinə təqdim etmək lazımdır.

***Əlaqə telefonu: (036) 550-88-91***

***

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti mətbəə xidmətlərinin göstərilməsi üçün kotirovka sorğusu keçirilməsində iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir.

Xidmətə aşağıdakı sənədlər təqdim olunmalıdır:

- *Maraq məktubu*
- *Göstərdiyi mətbəə xidmətləri haqqında məlumat*

Qeyd olunmuş sənədlər toplusunu 13 fevral 2023-cü il, saat $11^{00}$-a kimi Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinə təqdim etmək lazımdır.

***Əlaqə telefonu: (036) 550-69-66***

### *İtmişdir*

Naxçıvan şəhər Qaraxanbəyli kənd sakini Vəliyev Mahir Səfəralı oğlunun adına olan JN-677 inventar nömrəli, 10304028 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

“Şahin” yarımqoşqu markalı avtomobilin 85 ZA 653 qeydiyyat nömrə nişanı itdiyindən etibarsız sayılır.

***

Həziyeva Aytəkin Vidadi qızının adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, 20 Yanvar küçəsi, ev 7-də yaşamış Novruzov Nəriman Məhəmməd oğlunun adına olan 2635 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Cəfərov Sərvin Ələmdar oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** ***AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.***
***Telefonlar: Məsul katib: 545-62-47***
***Şöbələr: 545-81-44, 545-51-18***
***Müxbirlər: 545-75-21, Faks: 544-52-52***
**E-mail:** *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:*** **Əli Cabbarov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1000. Sifariş № 78**